**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ŞAHİSMAYIL NAMAZ OĞLU İSMAYILOV**

# XVII YÜZİLLİYİN 80-90-CI İLLƏRİNDƏ SƏFƏVİ DÖVLƏTİNİN SOSİAL-İQTİSADİ HƏYATI (SANSON VƏ ENGELBERT KEMPFERIN "SƏYAHƏTNAMƏSİ" ƏSASINDA)

İxtisas: 5502.01– Ümumi tarix

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2013**

Dissertasiya Bakı Dövlət Universitetinin “Azərbaycan tarixi (təbiət fakültələri üzrə)” kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **S.A.Məmmədov**
Dövlət mükafatı laureatı, əməkdar elm xadimi, tarix üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **A.B.Baxşəliyev**
tarix üzrə elmlər doktoru, professor

**Ə.S.Quliyev**
tarix üzrə fəlsəfə doktoru

**Aparıcı təşkilat:** Bakı Slavyan Universitetinin “Azərbaycan tarixi və ictimai elmlər” kafedrası

Müdafiə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 22 fevral 2013-ci il tarixli 95 saylı əmri ilə Bakı Dövlət Universitetinin nəzdində yaradılmış 5502.01 - «Ümumi tarix» ixtisası üzrə Dissertasiya Şurasının «____» _________ 2013-cü il tarixli iclasında, saat «______» keçiriləcəkdir.

**Ünvan:** Az-1148, Bakı şəhəri, Z.Xəlilov küç. 23

Dissertasiya ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «_____»_____________2013-cü ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**Tarix üzrə elmlər doktoru, professor** **R.C.Süleymanov**

# I. DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Azərbaycan milli müstəqilliyini yenidən bərpa etdikdən sonra xalqımızın tarixinin bir çox problemlərinin yenidən araşdırılıb öyrənilməsi, tarixi gerçəkliklərin üzə çıxarılması böyük əhəmiyyət kəsb etmişdir. Məlum olduğu kimi, xalqımız zəngin dövlətçilik ənənələrinə malik olmuş və bu orta yüzillərdə Qaraqoyunlu, Ağqoyunlu dövlətləri və Səfəvilər kimi qüdrətli imperiyanın timsalında özünü göstərmişdir. Sovetlər dönəmində istər Azərbaycan və istərsə də xarici tarixşünaslıqda Səfəvi imperiyasının tarixinə bir çox əsərlər həsr edilsə də, bu dövlətin tarixi ilə bağlı bəzi problemlər təhrif edilmiş, onun son dövr tarixi isə ayrıca tədqiqat mövzusu olmamış və hərtərəfli şəkildə araşdırılmamışdır. Elə buna görə də tarixşünaslığımızda XVII əsrin ortaları və ikinci yarısında Səfəvi imperiyasının sosial-iqtisadi tarixinin öyrənilməsinə böyük ehtiyac yaranmışdır. Azərbaycan xalqının dövlətçilik tarixinin parlaq səhifələrindən olan Səfəvi imperiyasının son dövrünün sosial-iqtisadi problemlərinin araşdırılıb öyrənilməsi tarixşünaslığımız üçün çox böyük elmi əhəmiyyət kəsb edir.

XVII əsrdə Avropanın inkişaf etmiş dövlətləri arasında Şərqdə satış bazarları, xammal mənbələri, müstəmləkələr və əlverişli karvan yolları ələ keçirmək uğrunda rəqabət daha da kəskinləşmişdi. Bu dövrdə Şərqdə təbii zənginlikləri ilə fərqli yer tutan Səfəvi məmləkətinin bir çox bölgələri, xüsusən də İran körfəzi Avropa dövlətlərinin maraq və mənafelərinin toqquşduğu əsas region idi. Avropa dövlətləri Şərqdə işğalçılıq planlarını həyata keçirmək üçün Asiyanın bir çox ölkələri kimi, Səfəvi dövlətinə də ardı-arası kəsilmədən missioner, tacir, elçilər göndərir və onlar xüsusi təlimatlar əsasında hesabatlar, gündəliklər tərtib edirdilər. Onların tərtib etdikləri bu gündəlik və XVII əsrin ortaları və ikinci yarısında Səfəvi dövlətinin sosial-iqtisadi tarixinə dair yerli mənbələr çox az olduğuna görə dövrün Avropa ədəbiyyatlarını tədqiqata cəlb etmədən bir çox problemlərin, o cümlədən dissertasiya mövzusunun hərtərəfli araşdırılması, ağ səhifələrin doldurulması mümkün deyildir. Bu dövrdə Səfəvi dövlətinə Avropadan müxtəlif məqsədlərlə göndərilmiş elçilər, tacirlər, missionerlərdən almaniyalı Engelbert Kempfer və fransız Sansonun gündəliklərində Azərbaycanın, İranın əlverişli hərbi-strateji mövqeyi, təbii sərvətləri, qonşu dövlətlərlə münasibətlərinə dair zəngin məlumatlar verilmişdir. Dissertasiya işində Səfəvi dövlətinin XVII əsrin ortaları və II yarısında sosial-iqtisadi tarixi Engelbert Kempfer və Sansonun gündəlikləri əsasında ayrıca bir mövzu kimi öyrənilmişdir.

Səfəvi dövlətinin sosial-iqtisadi həyatı ilə yanaşı, mənəvi mədəniyyətinin bir çox sahələri də E.Kempfer və Sansonun əsərlərində öz geniş əksini tapmışdır. Ancaq XVII əsrin ikinci yarısına aid olan Avropa ədəbiyyatları tarixşünaslığımızda xüsusi tədqiqat obyekti olmadığına görə qeyd olunan yüzilin ortaları və ikinci yarısında Səfəvi dövlətinin sosial-iqtisadi həyatı barədə də xüsusi tədqiqat əsəri yazılmamışdır. Bizcə, həm tədqiq etdiyimiz mövzunun, həm də Engelbert Kempfer və Sansonun əsərlərinin aktuallığı bununla da izah edilməlidir. Ona görə də zəngin dövlətçilik ənənəsi olan Səfəvi dövlətinin sosial-iqtisadi tarixinin tədqiqi üçün yaranmış şəraitin indiki mərhələsində səyyahların bu barədə verdikləri məlumatların tarixşünaslığımızın mövqeyindən öyrənilməsi çox böyük elmi-nəzəri əhəmiyyət kəsb edir. Bu həm də Azərbaycan Səfəvi dövlətinin Qərb aləmi ilə qarşılıqlı iqtisadi və mədəni əlaqələri tarixini öyrənmək baxımından da aktual səciyyə daşıyır. Tədqiqata cəlb etdiyimiz Avropa səyyahlarının əsərlərindən əldə etdiyimiz materialların araşdırılması zamanı qarşımıza yeni problemlər də çıxmışdır ki, bütün bunlar dissertasiyada kompleks şəkildə öyrənilmişdir.

Bu gün Azərbaycan xalqının, onun mütərəqqi fikirli adamlarının dövlətimizin suverenliyi, müstəqilliyi uğrunda inadlı, ardıcıl mübarizələri və ona nail olmaları, əldə etdikləri uğurlar tamamilə təbiidir. Bu mənada Avropa qaynaqları əsasında əski çağlardan bəri Azərbaycanın sosial-iqtisadi həyatının, orijinal dövlətçilik ənənələrinin öyrənilməsi və onun özünəməxsus cəhətlərinin aşkarlanması, xalqımızın tarixən zəngin dövlətçilik ənənəsinə, idarəetmə bacarığına malik olduğunu isbat edir ki, bu da öz növbəsində araşdırdığımız mövzunun çox böyük elmi əhəmiyyət və aktuallıq kəsb etməsini təsdiq edir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Dissertasiya işi XVII əsrin 80-90-cı illərini əhatə edir. Tədqiqat işi bu dövrdə Səfəvi dövlətinin sosial–iqtisadi həyatı və idarəçilik sisteminin öyrənilməsinə yönəlmişdir.

E.Kempfer və Sansonun əsərlərində XVII əsrin ortalarında əkinçilik, maldarlıq, ipəkçilik, pambıqçılıq, bağçılıq və bostançılıq təsərrüfatı, sənətkarlıq və ticarəti haqqında da məlumatlar verilmişdir. Buna görə dissertasiyanın xronoloji çərçivəsini müəyyənləşdirərkən, bu mühüm cəhətlər də nəzərə alınmışdır.

**Problemin öyrənilmə dərəcəsi.** Vətən tarixşünaslığında Səfəvi dövlətinin sosial-iqtisadi, siyasi tarixi, mədəni həyatı araşdırılmış, dissertasiyalar, kitablar, elmi məqalələr yazılmışdır. Doğrudur, Azərbaycanın XVII əsrin 80-90-cı illərində sosial-iqtisadi həyatı Sanson və Engelbert Kempferin əsərləri əsasında ayrıca bir tədqiqat işi kimi öyrənilməmişdir. Ancaq Səfəvi

dövlətinin tarixinə həsr edilmiş tədqiqat işlərində XVII əsrin 80-90-cı illərində Azərbaycanın sosial-iqtisadi tarixi, mədəni həyatının bəzi problemlərinə toxunulmuş və Engelbert Kempferin, Sansonun əsərlərindən isə az da olsa istifadə edilmişdir.

Səfəvi dövlətinin XVII əsrdə sosial-iqtisadi tarixinə aid olan tədqiqatlar içərisində M.X.Heydərovun əsərləri xüsusi yer tutur. Onun 1966-cı ildə nəşr etdirdiyi "XVII əsrdə Azərbaycan şəhərlərinin sənətkarlıq istehsalı"[1] adlı kitabı tarixşünaslığımızda Azərbaycanın iqtisadi həyatına həsr edilmiş ilk fundamental əsər idi. M.X.Heydərovun qeyd edilən əsərindən sonra tədqiqat dairəsini genişləndirmiş və onun bir çox monoqrafiyaları işıq üzü görmüşdü.[2] Onun əsərlərində Səfəvi dövlətinin şəhərləri mühüm sənətkarlıq və ticarət mərkəzi kimi tədqiq edilmişdir. Çoxsaylı mənbələri elmi dövriyəyə cəlb edən müəllif tədqiqat işində Səfəvilər dövründə sənətkarlıq, sənətkarlıq təşkilatları, sosial münasibətlər, vergi və mükəlləfiyyətlər, gömrük sistemi, sənətkarlığın inkişaf xüsusiyyətləri kimi mürəkkəb problemləri araşdırıb tarixi gerçəklikləri üzə çıxarmış və Azərbaycan Səfəvi tarixşünaslığına dəyərli töhvələr bəxş etmişdir. O, XVII əsrin son illərində dövlət səviyyəsində iqtisadiyyatın zəifləməsi, şəhərlərdə istehsalın ümumi həcminin azalmasının səbəblərini də araşdırmış, düzgün elmi nəticələr əldə etmiş və bütün bu məsələlər barədə zəngin məlumatlar vermişdir.

Orta əsrlər tarixinin çox görkəmli tədqiqatçısı əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, professor Y.M.Mahmudov Avropa və Şərq səyyahlarının, elçilərinin Səfəvi dövlətinin tarixi ilə bilavasitə bağlı olan səyahətnamələrini, məktublarını Azərbaycan dilinə tərcümə etmiş, həm də onları araşdırıb yazdığı çoxsaylı əsərlərində tarixi gerçəklikləri üzə çıxarmışdır.[3] Onun əsərlərində Səfəvi dövlətinin sosial-iqtisadi həyatı, diplomatik əlaqələri, məktəb və maarif, dövrün elmi bilik sahələri haqqında

---

1 Гейдаров М.Х. Ремесленное производство в городах Азербайджана в XVII в. Баку, 1967.

2 Yenə onun. Города и городские ремесла Азербайджана XIII-XVII вв. Баку, 1982, Yenə onun. Социально-экономические отношения и ремесленные организации в городах Азербайджана в XIII-XVII вв. Баку, 1987.

3 Mahmudov Y.M. Səyyahlar Azərbaycana gəlir. Bakı, 1977; Yenə onun. Odlar yurduna səyahət. Bakı, 1980; Yenə onun. Səyyahlar, kəşflər, Azərbaycan. Bakı, 1985; Yenə onun. Azərbaycanın Avropa ölkələri ilə əlaqələri. Bakı, 1986; Yenə onun. Azərbaycan diplomatiyası. Bakı, 2006; Yenə onun. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами. Баку, 1991

olduqca dəyərli məlumatlar vardır ki, bütün bunlardan dissertasiya işinin yazılmasında geniş şəkildə istifadə olunmuşdur.

Vətən tarixşünaslığında Səfəvi dövləti tarixinin Azərbaycan dövlətçilik tarixində çox mühüm mərhələ təşkil etməsini ilk dəfə görkəmli alim, AMEA-nın müxbir üzvü O.Ə.Əfəndiyev araşdırmış, tarixi gerçəklikləri üzə çıxarmışdır. Onun "Azərbaycan Səfəvilər dövləti"[4]adlı monoqrafiyasında Azərbaycanın siyasi tarixi ilə yanaşı, sosial-iqtisadi həyatı haqqında da qiymətli məlumatlar vardır ki, bütün bunlar dissetasiya işinin yazılmasında bir örnək kimi qəbul olunmuşdur.

Azərbaycan orta əsr şəhərlərinin tarixinə həsr olunmuş monoqrafiyalar içərisində S.M.Onullahinin "XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi" adlı əsəri xüsusi elmi əhəmiyyətə malikdir.[5] Əsərdə Təbriz şəhərinin meydana gəlməsi, şəhərin Azərbaycanın daxili və xarici ticarətində rolu, şəhər sənətkarlığı və mədəniyyəti, şəhərin müxtəlif dövrlərdə tərəqqi və tənəzzülü zəngin qaynaq materiallarının təhlili əsasında araşdırılmışdır. Dissertasiya işinin yazılmasında onun da əsəri xüsusi əhəmiyyət kəsb etmişdir.

Azərbaycanın orta əsrlərdə şəhər həyatına həsr olunmuş tədqiqat işlərindən görkəmli tarixçi S.Aşurbəylinin əsərləri də xüsusi əhəmiyyət kəsb edir. Onun "Bakı şəhərinin tarixi"[6] adlı monoqrafiyasında XVI-XVII əsrlərdə şəhərin siyasi tarixi, iqtisadi həyatı, sənətkarlıq və ticarət, şəhər əhalisinin sosial tərkibi zəngin mənbə materialları əsasında araşdırılmışdır. Onu da göstərmək lazımdır ki, müəllif Abşeronda neft hasilatı problemini araşdırarkən bir çox Qərb və Şərq səyyahlarının əsərlərindən, o cümlədən Engelbert Kempferin də "Səyahətnaməsi"ndən istifadə etmişdir.

Ə.Ə.Rəhmaninin "Azərbaycan XVI əsrin sonu və XVII əsrdə" [7] adlı monoqrafiyasında Azərbaycanın sosial-iqtisadi həyatının bir çox problemləri araşdırılmış, 1639-cu ildə Osmanlı dövləti ilə imzalanmış müqavilənin Təbriz şəhərinin iqtisadi həyatının təkamülünə göstərdiyi təsirlər haqqında məlumatlar verilmişdir.

Müstəqillik dövrünün tədqiqat işlərindən N.Süleymanovun "Səfəvi dövlətinin təsərrüfat həyatı"[8] adlı monoqrafiyası da mövzunun araşdırılmasında xüsusi əhəmiyyət kəsb etmişdir.

---

4 Əfəndiyev O.Ə.  Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993
5 Onullahi S.M. XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi. Bakı, 1982
6 Aşurbəyli S. Bakı şəhərinin tarixi. Ruscadan tərcümə edəni Azər Bağırov. Bakı, 2006
7 Рахмани А. А. Азербайджан в конце XVI  и в XVII веке. Баку, 1981
8 Süleymanov N. Səfəvi dövlətinin təsərrüfat həyatı. Bakı, 2006

Mövzu araşdırılarkən Azərbaycan tədqiqatçılarından X.Qasımov[9] Ş.F.Fərzəlibəyli,[10] Z.Bayramlı,[11] V.Piriyev,[12] A.B.Baxşəliyev,[13] R.Dadaşova,[14] S.Məmmədov,[15] M.X.Nemətova,[16] M.Dadaşzadə,[17] R.Məmmədov,[18] Z.M.Həsənalıyev[19] və bir çox başqalarının da əsərlərindən istifadə edilmişdir.

Rus tarixçiliyində XVI-XVII əsrlərdə Azərbaycan tarixinin hərtərəfli şəkildə araşdırılması İ.P.Petruşevskinin [20] adı ilə bağlıdır. Onun əsərlərində Azərbaycan tarixinin müxtəlif problemləri, o cümlədən torpaq sahibliyi, vergi və mükəlləfiyyətlər, ümumən sosial münasibətlərə aid məlumatlar mövzunun araşdırılmasında əhəmiyyət kəsb etmişdir.

Dissertasiya işində V.V.Bartold, [21]P.P.Buşev [22], M.S.İvanov [23], N.Q.Kukanov [24], A.P.Novoseltsev [25], N.V.Fexner [26] və bir çox başqa rus tədqiqatçılarının da əsərlərindən istifadə olunmuşdur.

İran tarixşünaslığında da Səfəvi dövlətinin tarixi geniş şəkildə araşdırılmış, müxtəlif mövzularda tədqiqat əsərləri yazılmışdır. Ancaq onu

---

9 Qasımov X. Orta əsrlərdə Azərbaycan mədəniyyəti Bakı, 2008

10 Fərzəlibəyli Ş.F. Azərbaycan XV-XVI əsrlərdə. Bakı, 1983

11 Bayramlı Z.H. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə sistemi. Bakı, 2006

12 Piriyev V.Z. Azərbaycanın tarixi coğrafiyası. Bakı, 2002,

13 Baxşəliyev A.B. Güney Azərbaycan şəhərlərinin mədəni həyatı səyyah gündəliklərində (XVI-XVII yüzilliklərdə). Bakı, 2003; Yenə onun. Səfəvi dövlətinin sosial-iqtisadi həyatı və beynəlxalq əlaqələri. Bakı, 2009

14 Dadaşova R. Səfəvilərin son dövrü (ingilis tarixşünaslığında). Bakı, 2003

15 Məmmədov S.A. Azərbaycan tarixi. Bakı, 2004

16 Nemətova M.X. Şirvanın XIV-XVI əsrlər tarixinin öyrənilməsinə dair. Bakı, 1959

17 Dadaşzadə M. Azərbaycan xalqının orta əsr mənəvi mədəniyyəti. Bakı, 1985

18 Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı, 1977

19 Həsənalıyev Z.M. Səfəvi dövləti. (XVII əsrin I yarısı). Bakı, 2000

20 Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI-начале XIX вв. Ленинград, 1949,

21 Bartold V.V. Müsəlman dünyası tarixində Xəzəryanı bölgələrin yeri. Azərbaycan dilinə çevirənlər akademik Z.M.Bünyadov və t.e.d. N.R.Ağayeva.Bakı 1999

22 Бушев П. П. Посольства дипломатических отношений Русского и Иранского госдарств 1613-1621 гг. (по русским архивам). Москва, 1978; Yenə onun. Посольство Артемия Волынского в Иран в 1715-1718 гг. Москва, 1978

23 Иванов М.С. История Ирана. Москва, 1977; Yenə onun. Очерк истории Ирана. Москва, 1952

24 Куканов Н. Г. Очерки по истории русско-иранских торговых отношений в XVII - в первой половине XIX века (по материалам русских архивов). Саранск, 1977

25 Новосельцев А.П. Города Азербайджана и Восточной Армении в XVII-XVIII вв. // « История СССР», 1959, №1

26 Фехнер М. В. Торговля Русского государства со странами Востока в XVI веке. Москва, 1956

da qeyd etmək lazımdır ki, İran tarixçiləri əsasən siyasi tarixi araşdırmış və onların əsərlərində sosial–iqtisadi məsələlərə demək olar ki, toxunulmur. İran tarixçilərindən Əbülqasım Tahiri, [27] Əhməd Tacbəxş, [28] Məhəmməd Cavad Məşkur, [29] Nəsrullah Fəlsəfi [30] və bir çox başqalarının əsərlərindən istifadə olunmuşdur. Ancaq onu da qeyd etmək lazımdır ki, İran tarixşünaslığında Səfəvi dövlətinin tarixinə həsr edilmiş əsərlərdə bəzən obyektivlik və elmilik öz əksini tapmır, tarixi gerçəkliklər, həqiqətlər ya danılır, ya da onların üzərindən sükutla keçirlər.

Səfəvi dövlətinin quruluşu, idarəçilik sistemi, inzibati ərazi bölgüsü məsələlərinin araşdırılmasında V.F.Minorskinin[31] əsərinə müraciət olunmuş, bu əsərdə qeyd edilən məsələlərə aid olan məlumatlardan istifadə edilmiş və onlara tənqidi münasibət də bildirilmişdir.

**Dissertasiya işinin mənbə bazası.** Mövzu əsas etibarilə məşhur Almaniya bilim adamı Engelbert Kempfer və Fransa missioneri Sansonun əsərləri əsasında araşdırılmışdır. Problemin hərtərəfli öyrənilməsi üçün qeyd edilən müəlliflərin əsərləri ilə yanaşı, bir çox başqa Avropa və Şərq səyyahlarının səfərnamələrinə, rəsmi sənədlərə, farsdilli, türkdilli mənbələrə də müraciət edilmişdir.

Engelbert Kempfer (1651-1716) 16 sentyabr 1651-ci ildə Almaniyanın Lemqo şəhərində keşiş ailəsində anadan olmuşdur. O, ilk təhsilini Lemqo, Hameln, Luneburq, Lübek şəhərlərində almışdır. 1672-ci ildə Hollandiyada universitetə daxil olmuş, bir müddət burada oxuduqdan sonra, Krakov və Gönsberqdə təhsilini davam etdirərək fəlsəfə, tarix, qədim dilləri, təbiət elmlərini, təbabəti mükəmməl öyrənməyə müvəffəq olmuşdur. O, 1681-ci ildə Gönsberqdən İsveçə köçmüş və 1683-cü ildə İsveçdən Lui Fabrisusun başçılığı altında Səfəvi dövlətinə ticarət məsələləri barədə danışıqlar aparmaq üçün göndərilən elçiliyə katib təyin edilmişdir. 1683-cü ilin mart ayında Stokholmdan yola düşən elçilik həmin ilin noyabr ayında Həştərxana çatır və buradan hərəkət edərək Şamaxıya gəlir. Elçilər Şamaxıda dörd həftə qalır ki, bu müddətdə Engelbert Kempfer bir çox məntəqələrdə, o cümlədən Bakıda olur. 1684-cü ilin yanvar ayında elçilər Şamaxı-Rəşt-Qəzvin-Şavə-Qum-Kaşan-Nətənz karvan yolu ilə hərəkət edib, həmin ilin mart ayında İsfahana çatırlar. Engelbert Kempfer karvan

---

27 ابو القاسم سحاب، تاریخ زندگی شاه عباس کبیر، تهران، چاپخانه علم1325،

28 احمد تاجبخش، ایران در زمان صفویه، تبریز: چاپخانه شفق، 1340،

29 محمد جواد مشکور، نظری به تاریخ آذربایجان، تهران: چاپخانه بهمن، 1349،

30 نصر الله فلسفی، زندگانی شاه عباس اول، ج. 1-5، تهران: چاپخانه مهارت، 1364،

31 سازمان اداری حکومت صفوی یا تعلیقان مینورسکی بر تذکرة الملوک، ترجمه مسعود رجب نیار، تهران: انتشارات امیر کبیر، 1368

yolunda rast gəldiyi bütün yaşayış məntəqələrinin sosial-iqtisadi həyatını ətraflı yazıya almışdır. O, təxminən 20 ay İsfahanda olmuş və bu müddətdə gündəlik qeydləri əsasında Səfəvi ölkəsinin bitkilər aləmi haqqında ilk əsərini yazmış, ancaq onun bu əsəri çap olunmamışdır. Onun yazdığı risalələrdən ən maraqlı və elmi əhəmiyyət kəsb edəni dövlət quruluşu haqqındakı əsəridir. O, 1683-1684-cü illərdə Azərbaycan və İranın bir çox şəhərlərini gəzmiş və elçiliklə geriyə qayıtmadığına görə Rafael dyu Mansın zəmanəti ilə İran körfəzindəki Hollandiya hərbi dəniz donanmasında qulluğa götürülmüşdür. Engelbert Kempfer 1693-cü ildə vətəninə qayıdır, xatirələrini latın dilində yazıb tamamlayır və 1712-ci ildə beş cilddə çap etdirir. Engelbert Kempferin səfərnaməsini Latın dilindən Alman dilinə Valter Hins tərcümə etmiş və sonra müxtəlif dillərdə çap olunmuşdur. O cümlədən Keykavus Cahanduri tərəfindən fars dilinə də tərcümə olunub 1350-ci ildə Tehranda nəşr edilmişdir [32].

E.Kempferin şəxsi müşahidələri, habelə səfirliyin mehmandarı (xarici nümayəndəliklərin üzvlərini, diplomatik qonaqları qəbul edib yola salan şəxs) və xristian missionerlərinin Səfəvi imperiyasının müxtəlif vilayətlərinə aid sənədlər onun məlumatlarının əsasını təşkil edirdi. E.Kempferin əsərində Azərbaycan haqqında geniş məlumat verilir. Onun əsərinin ikinci hissəsində Abşeron, Bakı neft quyuları haqqında məlumatlar xüsusilə maraqlıdır. E.Kempfer Kaspi (Xəzər) dənizinin xüsusiyyətləri, Xəzərsahili yerlərin bitki və heyvanat aləmi, təsərrüfatı, habelə Qafqaz dağlarının quruluşu haqqında ətraflı məlumat verir. Qeyd etmək lazımdır ki, Kempfer Azərbaycan neftinin–"əbədi məşəlin" ilk tədqiqatçılarındandır. Əsərdə verilən şəkil və xəritələr – Abşeron yarımadasının xəritəsi, Şamaxı, Bakının görünüşü xüsusilə əhəmiyyətlidir. Əlavə edək ki, V.M.Sısoyevin– "Bakı keçmişdə və indi" kitabındakı təsvir Kempferin əsərindən götürülmüşdür.[33]

Ümumiyyətlə bütövlükdə Səfəvi dövlətinin, o cümlədən bu dövlətin metropoliyası olan Azərbaycanın XVII əsrin II yarısında sosial-iqtisadi həyatının ən vacib məsələlərinin hərtərəfli şəkildə araşdırılması üçün E.Kempferin "Səyahətnamə"sindəki materiallar və faktlar çox qiymətli mənbə rolunu oynayır.

Fransalı missioner Sanson 1683-cü ildə XIV Lüdoviqin zəmanət məktubu ilə xristian dinini təbliğ etmək məqsədilə Səfəvi dövlətinə Şah

---

32 در دربار شاهنشاه ایران، تالیف انگلبرت کمپفر، ترجمه کیکاووس جهانداری، تهران: شرکت سهامی افست، 1350،

33 Сысоев В.М. Баку прежде и теперь. Краткий исторический очерк. Баку, 1928

Süleymanın (1666-1694) sarayına göndərilmişdi. O, Azərbaycan və İranın bir çox şəhərlərində, o cümlədən yolüstü Təbrizdə, 8 ay Qəzvində, 3 il İsfahanda olmuşdu. Uzun illər Səfəvi ölkəsində yaşayan Sanson burada fars dilini öyrənmiş, Səfəvi dövlətinin xüsusiyyətləri, yerli əhalinin adət-ənənələri ilə yaxından tanış olmuş və bütün bu məsələləri gündəliyində təsvir etmişdir. O, bütün bu məsələləri bir avropalı kimi və ona verilən tapşırığa əsasən aydın və olduğu kimi yazıya almağa cəhd göstərmişdir. Fransaya qayıtdıqdan sonra 1695-ci ildə çap etdirdiyi əsəri Səfəvi dövlətinin tarixinin bir çox problemlərini özündə əks etdirməklə, olduqca diqqətəlayiq, həm də elmi əhəmiyyətlidir. Xüsusilə onun əsərində Səfəvi sarayının əzəməti, rəsmi idarə orqanlarının statusları haqqındakı məlumat olduqca maraqlıdır.

Sansonun Səfərnaməsi Tağı Təfəzzülü tərəfindən fars dilinə tərcümə edilmiş və h. 1346-cı ildə Tehranda nəşr olunmuşdur.[34] Biz mövzunun araşdırılmasında əsasən onun tərcüməsindən istifadə etmişik.

Sanson baş vəzir (etimad-əd-dövlə) və ədliyyə icra məmurlarının başçısı divanbəyi haqqında, onların səlahiyyət dairələri haqqında danışır və qeyd edir ki, xarici işlər və ticarət idarələri də baş maliyyə müşaviri etimad-əd-dövlənin ixtiyarındadır. Bütün ənamlar, aylıq maaşlar onun sərəncamı ilə ödənilir. O, şahın fərman və sərəncamlarının üzünü köçürtdürür, təsdiq edir, möhür vurur. Arxasında yazır: «Bənde-ye dərgah aliyətül-aliyə etimad əd-dövlə, yəni mən ki, dövlətin qoruyucusu astanın bəndəsiyəm və ən yüksək ali vəzifə də astanlardandır». O, hər ay dövlət xəzinəsindən xərcləri üçün 1000 tümən götürürdü, ancaq onun məvacibi bu məbləğdən çox idi .[35]

Beləliklə Sansonun səfər Gündəliyində toplanmış materiallar XVII əsrin II yarısında Səfəvi dövlətinin sosial-iqtisadi həyatının bir çox məsələlərinə aydınlıq gətirilməsi baxımından çox əhəmiyyətlidir.

Tədqiqat işində bir sıra konseptual məsələləri, mövzu ilə bağlı dəlil və faktları düzgün öyrənmək, elmi baxımdan əsaslandırmaq və paralellər aparmaq məqsədilə digər Avropa və Şərq mənbələrindən də istifadə edilmişdir.

XVII əsrin yerliMəhəmməd Yusif Qəzvinidir. O, I Şah Süleymanın dövründə saray tarixçisi olmuş və “Xolde bərin” adlı əsərin müəllifidir.[36] Bu mənbə iri həcmli ümumi tarix əsəri olub, səkkiz bölmə və xatimədən

---

[34] سفرنامه سانسون، وضع کشور شاهنشاهی ایران در زمان شاه سیلمان صفوی، ترجمه دکتر تقی تفضلی، تهران، 1346،

[35] سفرنامه سانسون، وضع کشور شاهنشاهی ایران در زمان شاه سیلمان صفوی، ترجمه دکتر تقی تفضلی، تهران، 1346، ,

[36] محمد یوسف قزوینی، خلد برین، تهران: چاپخانه شیرین، 1372،

(sonluq) ibarətdir. I-VII bölmələrdə peyğəmbərlər, islama qədərki hökmdarlar, Həzrəti Məhəmməd və imamlar, Əməvi və Abbasi xəlifələri, Çingiz xan və Teymurlu sülaləsi, Qaraqoyunlu və Ağqoyunlu xanədanın tarixi əks olunmuşdur. Səkkizinci bölmə yeddi hissədən, yəni I Şah İsmayıl, I Şah Təhmasib, II Şah İsmayıl, Məhəmməd Xudabəndə, I Şah Abbas, I Şah Səfi, II Şah Abbas haqqında rövzələrdən ibarətdir. Əsərin sonluq hissəsində Şah Süleyman Səfəvinin dövrünün tarixi hadisələri şərh edilmişdir.

Seyid Hüseyn Astrabadinin "Əz Şeyx Səfi ta Şah Səfi" adlı əsəri [37] Azərbaycanın orta əsrlər tarixindən bəhs edən qiymətli məxəzlərdən olub, araşdırılan mövzu ilə bilavasitə bağlıdır. Əsərdə Şeyx Səfidən (1252-1334) başlayaraq geniş bir dövrün tarixi hadisələri öz əksini tapmışdır. Molla Kamalın "Zübdət ət-təvarix"[38] əsərinin h. 1334-cü il çapına müəllifi məlum olmayan "Xülasət ət-təvarix" adlı müxtəsər bir mənbə də daxil edilmişdir. Mənbədə 1653-cü ilə qədər Səfəvi dövlətinin tarixinin geniş bir dövrü əksini tapmışdır.

Mövzu ilə bağlı farsdilli qaynaqlar içərisində Mirzə Səmianın "Təzkirət əl-müluk"[39] adlı əsəri çox böyük elmi əhəmiyyət kəsb edir. Bu əsərdə dövlət quruluşu, məmurların statusu, həm də onların məvacibləri, titullarının şərhi öz əksini tapmışdır. Əsərdə karxanalar və onların quruluşu, daxili əmək bölgüsü və araşdırılan mövzu ilə bağlı bir çox başqa məsələlər də öz əksini tapmışdır.

Dissertasiyada, həmçinin paralellər və müqayisələr aparmaq üçün Fəzli İsfahaninin «Əfzəl ət-təvarix» [40] adlı əsərindən də istifadə edilmişdir. Bəhs etdiyimiz dövrün ən dəyərli və iri həcmli qaynağı, Azərbaycanın məşhur tarixçisi İskəndər Münşinin (1560-1638) «Tarix-e aləm aray-i Abbasi» [41] əsəridir. Mövzunun bir sıra məsələlərinin həllində bu qaynaqdan istifadə edilmiş, bəzi faktlar dəqiqləşdirilmişdir.

Rəsmi sənədlərdə, xüsusilə dövrün fərmanlarında Səfəvi dövləti tarixinin sosial-iqtisadi məsələlərinə dolayı yolla toxunulmuşdur.[42]

---

37. سید حسین بن مرتضی حسینی آسترآبادی، تاریخ سلطانی از شیخ صفی تا شاه صفی، تهران: چاپخانه بهمن، 1358،

38 ملا کمال بن جلال الدین محمد منجم، زبدة التواریخ، نسخه خطی؛ همچنین دو کتاب نفیس از مدارک اولیه تاریخ صفویان، خلاصة التواریخ – تاریخ ملا کمال، اراک، 1334،

39 میرزا سمیعا، تذکرة الملوک، به کوشش دکتر سید محمد بیر سیاقی، تهران، انتشارات امیر کبیر، 1368،

40 نصر الله فلسفی، زندگانی شاه عباس اول، ج. 1-2، تهران: چاپخانه مهارت، 1364-

41. اسکندر بیگ ترکمان، تاریخ عالم آرای عباسی، جلد 1-2، تهران، چاپ گلشن، 1350،

42 Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 год. Ч.1, Москва, 1869; Персидские документы Матенадарана. Указы, т. 1, вып. 1. (XV-XVI вв.).

Səfəvi dövlətinin vergi sistemi və mükəlləfiyyətlərin mahiyyətini araşdırmaq baxımından Matenadaranda saxlanılan farsdilli sənədlər mühüm elmi əhəmiyyətə malikdir. Qeyd edilən sənədlər A.D.Papazyan tərəfindən tərtib edilib "Matenadaranın farsdilli sənədləri" adlı kitabda verilmişdir.[43]

Mövzu ilə bağlı qiymətli qaynaqlardan biri də Fransa taciri Jan Battist Tavernyenin "Səyahətnaməsi"dir. Tavernyenin Səyahətnaməsini Əbuturab Nuri fars dilinə tərcümə etmiş və h. 1336-cı ildə Tehranda nəşr olunmuşdur.[44] Dissertasiya işində əsas etibarilə mənbənin fars nəşrindən istifadə edilmişdir.

Səfəvi dövlətinin sosial-iqtisadi və mədəniyyət tarixini öyrənmək baxımından fransız səyyahı J.Şardenin (1643-1713) iri həcmli əsəri dəyərli qaynaqdır.

Şardenin Səyahətnaməsini İran tarixçilərindən Məhəmməd Abbasi fars dilinə tərcümə etmiş və Tehranda 10 cilddə h. 1335-1336-cı ildə çap etdirmişdir. [45] İran tarixçilərindən Eqbal Yəğmai də Şardenin Səyahətnaməsini farscaya tərcümə etmişdir. Onun tərcüməsi beş kitabdan ibarətdir. H. 1372-1375-ci illərdə Tehranda çap olunmuşdur.[46] Dissertasiya işində əsasən mənbənin İran çaplarından istifadə olunmuşdur.

Avropa səyyahlarının yol qeydlərində Səfəvi dövlətinin şəhərləri, sənətkarlıq, ticarət, ictimai münasibətlər, əkinçilik, mənəvi mədəniyyət və dövlət quruluşu barədə dəyərli məlumatlar vermiş səyyahlardan biri də Yan Streysdir. Bu qaynaq Azərbaycan tarixinin orta çağlarını öyrənmək baxımından xüsusi əhəmiyyətə malikdir.[47]

Katolik missioneri Rafael dyu Mans XVII əsrdə uzun müddət İsfahanda yaşamışdır. [48] Onun Səfəvi dövlətinin sosial-iqtisadi həyatına, sənətkarlıq istehsalının xüsusiyyətinə dair materiallarının da mövzunun araşdırılmasında xeyli əhəmiyyəti vardır.

---

Составил А.Д. Папазян. Ереван, 1956; Персидские документы Матенадарана. Указы, т. 1, вып. 2 (1601-1650 гг.). Составил А.Д. Папазян. Ереван, 1949; Русско-индийские отношения в XVII в. / Сборник документов. Москва, 1958

43 Персидские документы Матенадарана. Указы, т. 1, вып. 1. (XV-XVI вв.). Составил А.Д. Папазян. Ереван, 1956; Персидские документы Матенадарана. Указы, т. 1, вып. 2 (1601-1650 гг.). Составил А.Д. Папазян. Ереван., 1949

44 سفرنامه تاورنیه، ترجمه: ابوتراب نوری، اصفهان: چاپخانه پروین، 1346

45 شاردن، سیاحتنامه شاردن، ترجمه محمد عباسی، ج. 2-4، تهران: انتشارات امیر کبیر، 1336-1335

46 شاردن، سفرنامه شاردن، ترجمه اقبال یقمائی، ج. 1-5، تهران: چاپخانه حیدری، -1372-1374.

47 Стрейс Я.Я. Три путешествия. Пер. с немец, на русск. Э.Бородиной. Москва, 1935

48 Estat de la Perse en 1660 par le P. Raphael du Mans, Superieur de la mission des capucins d`ispanan. Paris: Publie Avec Notes et Appendice Par CH Scheffer, 1890

**Tədqiqatın məqsəd və vəzifələri**. Dissertasiyada Avropa səyyahları Sanson və E.Kempferin Səyahətnamələri əsasında XVII əsrin 80-90-cı illərində Səfəvi dövlətinin sosial-iqtisadi həyatını öyrənmək başlıca məqsəd kimi qarşıya qoyulmuşdur.

İndiyədək XVII əsrin ortaları və ikinci yarısında Səfəvi dövlətinin sosial–iqtisadi vəziyyəti, mədəni həyatı, habelə idarəçilik sistemi tarixşünaslıqda Sanson və E.Kempferin əsərləri əsasında işıqlandırılmadığından tədqiqat işində aşağıdakı vəzifələri yerinə yetirməyə çalışmışıq:

- Mövzunun tədqiqi səviyyəsinin müəyyənləşdirilməsi və mövzu ilə bağlı əsərlərin elmi cəhətdən təhlil olunması;
- Engelbert Kempfer və Sansonun əsərlərindəki zəngin faktiki materialların araşdırılıb öyrənilməsi, əldə edilmiş faktları ümumiləşdirərək düzgün elmi nəticələrin əldə edilməsi;
- XVII əsrin ortaları və ikinci yarısında Azərbaycanın sosial–iqtisadi vəziyyətinin tədqiqi;
- Kənd təsərrüfatı istehsalının vəziyyətini təhlil etmək;
- Şəhər həyatı və şəhərlərin ölkənin sosial–iqtisadi həyatında rolunu müəyyənləşdirmək;
- Daxili və xarici tələbatın sənətkarlığın inkişafına təsirləri və sənətkatlığa təsir göstərən digər amillərin elmi təhlili;
- Daxili və xarici ticarət məsələlərinin təhlil olunması;
- Səfəvi dövlətinin sosial–iqtisadi həyatının tərəqqi və tənəzzülünə təsir edən əsas amillərin elmi şərhi;
- Şəhər həyatı və şəhər əhalisinin sosial struktur məsələlərini işıqlandırmaq;
- Azərbaycan Səfəvi dövlətinin quruluşu, idarə orqanları arasındakı səlahiyyət bölgüsünü və həmin orqanların statusunu aydınlaşdırmaq.

**Dissertasiya işinin metodoloji əsasını** tarix elmində qəbul olunmuş ümumi elmi metodlar təşkil edir. Tədqiq etdiyimiz problemin konkret cəhətlərinin araşdırılmasında ənənəvi tənqidi-analitik üsuldan istifadə edilmiş, tarixi həqiqətin üzə çıxarılmasında isə hadisəni doğuran səbəb və nəticənin əlaqəsi nəzərə alınmışdır. Tədqiqat prosesində faktların şərh edilməsində, başqa qaynaqların da dəlilləri nəzərə alınmış, müqayisələr, tənqidi analitik seçmələr aparılmışdır ki, bu da təcrübədə özünü doğrultmuş və tarixi həqiqətləri düzgün əks etdirən üsuldur.

**Dissertasiya işinin elmi yeniliyi.** Tarixşünaslığımızda ilk dəfə olaraq XVII əsrin 80-90-cı illərində Səfəvi dövlətinin sosial-iqtisadi tarixi və idarəçilik sistemi xüsusi mövzu kimi araşdırılır. Dissertasiya işində Engelbert Kempfer və Sansonun Səyahətnamələrindən əldə edilən

materiallar dövrün digər Avropa ədəbiyyatları, yerli mənbələr, elmi tədqiqat əsərlərindəki uyğun məlumatlarla müqayisəli şəkildə təhlil edilmiş, ümumiləşdirmələr aparılmışdır ki, bütün bunlar obyektiv gerçəkliyin üzə çıxarılmasına səbəb olmuşdur. Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün dissertasiya işində əsasən aşağıdakı göstərilən məsələlərin həll edilməsi diqqət mərkəzində olmuşdur.

- Engelbert Kempfer və Sansonun Səyahətnamələrindən əldə edilmiş məlumatların dövrün digər mənbələrindəki uyğun faktlarla müqayisəli təhlili verilmişdir;
- Mövzunun tədqiqat səviyyəsi elmi cəhətdən şərh edilmişdir;
- Səfəvi dövlətində kənd təsərrüfatı istehsalının ümumi vəziyyəti işıqlandırılmışdır;
- Səyyah gündəliklərindən əldə edilmiş məlumatların müqayisəli təhlili əsasında sənətkarlığın ümumi vəziyyəti, sənətkarlıq təşkilatı ilə bağlı məsələlər ətraflı şərh edilmişdir;
- Daxili və xarici ticarət məsələləri mənbələrdən əldə edilmiş materialların təhlili əsasında araşdırılmış, ümumiləşdirmələr aparılmışdır;
- Yeni materiallar əsasında mərkəzi və yerli idarə orqanları, onların arasında iş bölgüsü, hüquq və səlahiyyətləri işıqlandırılmışdır;
- Səyyah gündəliklərindəki dil məsələləri ilə bağlı məlumatlar təhlil edilmiş, ədəbi və dövlət dili ilə bağlı tarixi gerçəkliklərə aydınlıq gətirilmiş, həqiqətlər üzə çıxarılmışdır;
- Apardığımız tədqiqat Səfəvişünaslığı bir sıra yeni faktlar və qənaətlərlə zənginləşdirmişdir.

Beləliklə mövzunun kompleks şəkildə araşdırılması əsasında bu vəzifələrin həll edilməsini Səfəvişünaslıqda bir yenilik kimi qəbul etmək olar.

Bütün bunlar Yaxın və Orta Şərq tarixini daha dərindən öyrənmək baxımından ciddi elmi dəyərə malik olub, XVII əsrin ikinci yarısında Səfəvi dövlətinin sosial-iqtisadi tarixini yeni faktlarla zənginləşdirmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti**. Tədqiqat işi Səfəvilərin son dövr tarixinin lazımınca araşdırılmamış olduğu hazırki şəraitdə praktik əhəmiyyət kəsb edir. Belə ki, işdə toplanmış faktik materiallardan və onun nəticələrindən Yaxın və Orta Şərq xalqlarının ümumiləşmiş tarixini, o sıradan Azərbaycan, Türkiyə və İran tarixini yazmaq, tədris vəsaiti, mühazirə və seçmə kurs mətnləri hazırlamaq üçün istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi Bakı Dövlət Universitetinin «Azərbaycan tarixi(təbiət fakültələri üzrə) kafedrasında iki dəfə müzakirə edilmişdir. Dissertasiyanın əsas müddəaları ilə bağlı Beynəlxalq və

Respublika miqyaslı konfranslarda çıxışlar edilmiş, mövzuyla bağlı tezis və məqalələr dərc edilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, 7 paraqrafı əhatə edən üç fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin girişində tədqiqat obyekti kimi qəbul edilmiş mövzunun aktuallığı əsaslandırılmış, dissertasiyanın məqsəd və vəzifələri müəyyənləşdirilmiş, problemlə bağlı olan mənbələr səciyyələndirilmiş, tarixşünaslığı təhlil edilmiş, işin metodoloji əsası, elmi yeniliyi, nəzəri və təcrübi əhəmiyyəti göstərilmişdir.

**«Azərbaycan Səfəvi dövlətində aqrar münasibətlər»** adlanan birinci fəsil iki bölmədən ibarətdir. Bu fəsildə kənd təsərrüfatı, torpaq və vergi münasibətləri araşdırılmışdır.

Əvvəlki dövrlərdə olduğu kimi, XVII əsrin 80-90-cı illərində də Azərbaycan Səfəvi dövlətinin iqtisadi həyatında kənd təsərrüfatı mühüm yer tuturdu. Yaxın və Orta Şərq ölkələrində məlum olan kənd təsərrüfatı bitkilərinin bütün növləri bu ölkədə də əkilib becərilirdi. [49] Əkinçilik təsərrüfatında başlıca rolu süni suvarma sistemi oynayırdı. Əkinçilik təsərrüfatı çaylarda çəkilən su arxları, yeraltı su ehtiyatlarının müxtəlif yollarla üzə çıxarılması yolu ilə inkişaf etdirilirdi. Engelbert Kempfer yazır ki, çayların yataqlarından çox uzaq olan kəndlərdə su quyuları qazılır, bağlar, tarlalar bu quyuların suyu ilə suvarılır.[50] Sansonun gündəliyində Səfəvi məmləkətində süni suvarma sisteminin ümumi vəziyyəti və bəzi hallarda dövlət məmurlarının şəxsi maraqlarına uyğun olaraq yeni su arxlarının çəkilişinə mane olmaları haqqında ətraflı məlumat verilmişdir.[51] Belə ki, XVII əsrin I yarısında Səfəvi məmləkətinin simal-qərb və cənub-şərq sərhədlərində qonşu dövlətlərlə baş vermiş savaşlar zamanı bu bölgələrdəki bir çox kəhrizlər, su arxları dağıdılmışdır. Ancaq bu hadisələrin ölkənin mərkəzi iqtisadi bölgələrinin, xüsusən də İsfahan ətrafının təsərrüfat həyatına mənfi təsirləri çox olmamışdır. Digər tərəfdən II Şah Abbas (1642 – 1666) dövründə İsfahan ətrafında süni suvarma şəbəkəsi genişləndirilmişdir. Göstərilən səbəblərlə əlaqədar olaraq XVII əsrin 80-90-cı illərində ölkə miqyasındakı iqtisadi böhranın daxili iqtisadi

---

49 Rəhmani Ə.Ə. Göstərilən əsəri, s. 113
50 Engelbert Kempfer Göstərilən əsəri, s.104
51 Sanson. Göstərilən əsəri, s. 98-100

bölgələrə təsiri az olmuş, əkinçilik təsərrüfatında əmək məhsuldarlığı çox azalmamışdır. Engelbert Kempferin bu bölgələrdə taxılçılığın xüsusi əhəmiyyət kəsb etdiyini qeyd etməsi[52] fikrimizin doğruluğunu təsdiq edir.

XVII yüzilin 80-90-cı illərində Səfəvi məmləkətinin həyatında taxılçılıq, çəltik, paxlalı bitkilər, pambıqçılıq, ipəkçilik, bağçılıq, bostançılıq, üzümçülük və heyvandarlıq əsas yer tuturdu.

Engelbert Kempferin məlumatına görə, XVII əsrin 80-ci illərində ölkənin daxili  iqtisadi bölgələrində, xüsusilə də İsfahan ətrafında üzüm bağları yeni texniki qayda ilə salınırdı. Tənəklər cərgə ilə əkilir və diblərinə dirəklər basdırılırdı.[53]

Səfəvi məmləkətinin Xorasan, Mazandaran, Gilan, Şirvan və Qarabağ bölgələrində ipəkçilik çox yayılmışdı və təsərrüfat həyatında xüsusi əhəmiyyət kəsb edirdi. İ.P.Petruşevskiyə görə, Səfəvi məmləkətində ipəkçilik XVII əsrin 70-ci illərində öz inkişafının yüksəк mərhələsinə çatmışdı.[54] Bu illərdən etibarən Şirvanda hər il təxminən 100-125 pud xam ipək istehsal olunurdu.[55]

XVII yüzilin son illərində Səfəvi dövlətinin iqtisadi və siyasi böhranı, yerlərdə dövlət məmurlarının vəzifə səlahiyyətini aşması ölkə miqyasında kənd təsərrüfatının məhsuldarlığına öz mənfi təsirlərini göstərmişdir.

I Şah Abbas və onun xələflərinin aqrar siyasətinə uyğun olaraq xüsusi mülklərin hesabına divan (dövlət torpaqları) və xassə əmlakı (padişah və onun ailə üzvlərinin xüsusi əmlakı) xeyli genişləndirilib möhkəmləndirilmişdir. Engelbert Kempferin yazdıqlarından aydın olur ki, bu aqrar siyasət I Şah Süleyman dövründə də davam etmiş və artıq Mazandaran, Gilan, İsfahan, Qəzvin, Kaşan, Yəzd, Qum, Savə, Lar, Şiraz və bir çox başqa vilayət və mahallar xassə əmlakı idi.[56] Xassə torpaqları yarıdarlıq-paydarlıq şərti ilə kəndlilərə icarəyə verilirdi ki, bəzən bu icarədarlıq ömürlük olurdu. İcarədar icarəyə götürdüyü torpağın gəlirinin bir hissəsini şaha verirdi. Xassə əmlakından verginin alınması və onun mədaxilindən xərclərin müəyyən edilməsi, bütün bunların tozi dəftərxanasında qeydiyyata aldırılması ilə xüsusi vəzirlər məşğul olurdu.[57] Sözsüz ki, onlar əyalət

---

52 Engelbert Kempfer Göstərilən əsəri, s.112
53 Engelbert Kempfer Göstərilən əsəri, s. 209
54 Петрушевский И.П. Земледелие и аграрные отношения в Иране. Москва-Ленинград, 1960, с.170
55 Гейдаров М.Х. Города и городские ремесла Азербайджане XIII-XVII вв.. Баку, 1982, с. 143; Yenə onun. Ремесленное производство в городах. с. 49-50
56 Engelbert Kempfer. Göstərilən əsəri, s.111
57 Yenə orada, s.111-112

vəzirləri və onlara tabe maliyyə məmurları idilər. Əvvəllər olduğu kimi torpağın münbitliyi nəzərə alınaraq bəhrə, pul, yaxud natura ilə alınırdı.[58]

Vəqf dini məqsədlər və səvab işlər üçün ayrılmış və bilavasitə dini müəssisələrlə bağlı əmlak növü olub, onun alqı-satqısı şəriətlə qadağan idi. Bu əmlak dövlət vergisindən də azad idi. [59] Vəqf əmlakı mütəvəlli, mustoifi, vəzir, xədəmə və əmələlər tərəfindən idarə edilirdi.[60]

Mülk XVII əsrin 80-ci illərində əmlak növünün məhdud kateqoriyası olub, məmləkətin torpaq fondunun az bir hissəsini əhatə edirdi. Mülk dövlət qarşısında xidməti qulluğun yerinə yetirilməsi ilə bağlı deyildi. Ancaq nəzəri cəhətdən ölkənin bütün torpaq fondunun ali sahibkarı dövlət və şah olmaqla bu fonda dair sərəncam vermək hüququ da ona aid idi. Engelbert Kempfer mülklərin xassədən fərqləndiyini qeyd edərək yazır ki, onlar maaf olub vergidən azad idilər.[61]

Soyurqal irsi sahibkarlığın erkən forması olan iqta institutunun davamı, inkişaf etmiş forması olub, Orta Asiya, İran və Azərbaycanda feodalizmin inkişafında görkəmli yer tuturdu. Soyurqal da iqta kimi irsi olub, dövlətə xidmətlə bağlı idi.[62]

Soyurqalın məhdudlaşdırılması hesabına irsi deyil, şərti əmlak növü olan və sahibinə renta almaq hüququ verən məxsusi benefisinin-tiyulun genişləndirilməsi tədbiri həyata keçirilirdi. Soyurqaldan fərqli olaraq tiyul xidmət müqabilində olub, müvəqqəti xarakter daşıyırdı. Əslində məvacib müqabilində verilirdi. Tiyul qulluq adamlarına xidmətə görə məvacib əvəzi təyin olunmuş ərazidən rentanın bir hissəsini almaq hüququ verməklə, ancaq torpaq və süni suvarma qurğularına başçılıq etmək, sərəncam vermək hüququ vermirdi. Tiyul müvəqqəti həvalə olunmaqla iki cür olub, bir qayda olaraq vəzifəyə əlavə edilir, daha doğrusu birinci halda vəzifə ilə verilib alınırdı. İkinci halda ömürlük həvalə edilirdi.[63] Birinci halda “yeksale” ikinci halda “həmesale”. Engelbert Kempfer bu barədə yazır ki, Səfəvi dövlətində məvacib ödənişinin vahid qaydası mövcud olmamışdır. O,

---

58 Yenə orada

59 Petruşevskiy İ.P. XV əsrdə Azərbaycan dövlətləri: Azərb. SSR EA Tarix və fəlsəfə İnstitutunun əsərləri, c.1, Bakı, 1951, s. 85

60 Engelbert Kempfer. Göstərilən əsəri, s.122

61 Yenə orada, s.124

62 Петрушевский И.П. Очерки …. c.162

63 Sazmane Edare-ye hökuməte Səfəviya təliğate Minorski bər Təzkirət əl-mülük. Tərcome-ye Məsud Rəsəbniya, Tehran, h. 1368, s. 45-46

məvacib ödənişində həmesalenin “ömürlük”adı ilə verərkən göstərir ki, bu tiyul əsasən daha yüksək vəzifəli şəxslərə verilirdi. [64]

**“Sənətkarlıq və ticarətin ümumi vəziyyəti”**adlanan ikinci fəsildə XVII əsrin 70-80-ci illərində sənətkarlığın ümumi vəziyyəti, daxili və beynəlxalq ticarət əlaqələrindən bəhs olunur. XVII əsrin 80-90-cı illərində istehsal və peşənin yeni sahələrinin meydana gəlməsi, onların sərbəst istehsal sahələrinə bölunməsi, istehsal texnikasının yeniləşməsi hələ də feodal istehsal üsulu ilə məhdudlaşırdı. Ancaq buna baxmayaraq, iqtisadi təkamül zəif də olsa davam edir, yeni emalatxana və karxanalar meydana gəlirdi. Sənətkar emalatxanaları və karxanaların çoxu şəhər bazarlarında sənətkar-ticarət cərgələrində qismən də karxanalarda yerləşirdi. Əsas istehsal-satış mərkəzləri bazarlar idi. Şəhərlərdə xüsusi sənətkar emalatxanaları ilə yanaşı, feodal-sahibkarlara məxsus istehsal sahələri olan karxanalar da meydana çıxaraq fəaliyyət göstərirdi. Hətta iri feodal-sahibkarlar emalatxana və karvansarası olan bazarlar da tikirdilər.[65]

Engelbert Kempferin yazdığına görə, XVII əsrin 80-ci illərində Kirman mis mədəni, Yəzd qalay mədəni, Xorasan dəmir mədənləri, İsfahan filiz mədənləri istismara verilmiş və ölkə iqtisadiyyatında bu mədənlərin məhsulu xüsusi əhəmiyyət kəsb etməklə, artıq sənətkarlıqda yerli mis, qalay, dəmir, polad üstunlük təşkil edirdi.[66]

Fəsildə qeyd edilir ki, XVII əsrin 80-90-cı illərində beynəlxalq karvan yolu üzərində yerləşən İsfahan, Təbriz, Kaşan, Ərdəbil, Gəncə, Şamaxı kimi şəhərlərin  iqtisadi həyatında ticarət əsas yer tuturdu. Şəhərlərdəki bazarlarla yanaşı, oradakı karvansaralar ticarətin ümumi vəziyyətinin əsas göstəricisi idi. XVII əsrin 70-ci illərində ölkənin daxili və xarici ticarətində əsas yer tutan İsfahanda 300 karvansara vardı.[67]

XVII əsrin 80-ci illərində Səfəvi məmləkətinin şəhərlərinin ticarət həyatında ipək parçalar, xalı, ayaqqabı, mal-qara alqı-satqısı əsas yer tuturdu. Şaqren dəri (yumşaq dəri) növündən hazırlanan ayaqqabı Rusiya, Polşa, Hindistan və bir çox başqa ölkələrə də ixrac edilirdi. Bu ayaqqabıları əsasən Təbriz başmaqçıları hazırlayırdılar.[68]Təbrizin ölkənin daxili ticarət əlaqələrində rolu çox böyük idi. Engelbert

---

[64] Engelbert Kempfer. Göstərilən əsəri, s. 119

[65] Гейдаров М.Х. Социально-экономические отношения и ремесленные организации в городах Азербайджана в XIII-XVII вв. Баку, 1987, с.121

[66] Engelbert Kempfer. Göstərilən əsəri, s. 117

[67] Səyahətname-ye Şarden, c.2., s.464

[68] Səfərname-ye Tavernye, s.67

Kempfer yazır ki, Təbrizlə Gəncə, Şamaxı, Bakı, Naxçıvan, Ordubad Mahmudabad, Mərənd, Marağa, Xoy, Salmas, Ərdəbil, Sərab, Qəzvin, Sultaniyyə şəhərləri arasında sıx ticarət əlaqəsi vardı.[69]Təbrizə Şamaxıdan, Gəncədən ipək, Mahmudabaddan balıq, kürü, Gilandan ipək, düyü, limon, Şəkidən şal, Marağa, Mərənd, Xoydan quru meyvə gətirilib satılırdı.[70]

Şah Süleyman (1666-1694) İngilis tacirlərinə vaxtilə verilmiş imtiyazları ləğv etsə də, XVII əsrin 80-ci illərində Səfəvi-İngiltərə ticarət əlaqələri yenidən genişlənir. Engelbert Kempfer İran körfəzində ingilis tacirlərinin mövqeyinin möhkəm olduğunu yazmışdı.

Səfəvi-Fransa dövlətləri arasında isə qarşılıqlı ticarət əlaqələri Fransanın 1664-cü ildə Şərqi Hind şirkətini yaratdıqdan sonra mövcud olmuşdur. Sanson yazır ki, Şah Süleymanın Fransa tacirlərinə münasibəti çox yaxşı idi. Hətta Şah liman şəhərlərində Fransa gəmiçilərinə su və ərzağın pulsuz verilməsi barədə göstəriş vermişdi.[71]

Sansonun gündəliyində Səfəvi-Fransa qarşılıqlı iqtisadi əlaqələrinə çox az yer verilmişdir. Sözsüz ki, bu XVII əsrin son illərində Səfəvi dövlətinin iqtisadiyyatının tənəzzülü və bununla əlaqədar olaraq bir çox Avropa ölkələri kimi, Fransa ilə də ticarət münasibətlərinin zəifləməsi ilə əlaqədar idi.[72] Engelbert Kempferə görə bu zaman Hollandiyanın Səfəvi dövləti ilə ticarət əlaqəsi çox güclü idi. Əgər hollandlar istəsələr, Şahla razılığa gəlib hər il Səfəvi dövlətinə gömrük rüsumu ödəmədən 25000 tümən (425000 taler) mal ixrac edə bilərdilər. Ancaq bu zaman onların Səfəvi dövlətinə ixrac etdikləri malın ümumi dəyəri 20000 tüməndən artıq deyildi. Səyyaha görə bu zaman İran körfəzinin limanlarında Hollandiya, Fransa və bir neçə başqa Avropa dövləti istisna olmaqla digərlərinin nümayəndəlikləri yox idi.[73]

XVII əsrin sonu - XVIII əsr ərəfəsində Səfəvi dövlətində şəhər həyatının tənəzzülü, ticarət-sənətkarlıqla məşğul olan əhalinin sayının azalması bütün bunların hamısı şəhərlərdə karxanaların tənəzzülünə gətirib çıxarmışdı. İri emalatxanaların xırdalanması, öz növbəsində sənətkarlıq istehsalının naturallaşması onu öyrəndiyimiz dövr üçün səciyyəvi olan mütərəqqi xüsusiyyətlərdən məhrum etmişdi. Bu zaman

---

69 Engelbert Kempfer. Göstərilən əsəri,s.152-153
70 Səyahətname-ye Şarden, c.2,s.411
71 Sanson. Göstərilən əsəri, s. 35
72 Yenə orada, s.186
73 Engelbert Kempfer. Göstərilən əsəri,s.115

Səfəvi dövlətində baş vermiş siyasi böhran həmin prosesi, yəni sənətkarlığın zəifləməsini daha da sürətləndirirdi

Sanson yazır ki, artıq İsfahan, Kaşan, Təbriz, Məşhəd şəhərlərinin karxanalarında zərli parçalardan toxunan paltarların geyimi Hindistanda qadağan edilmişdi. Türkiyə və başqa qonşu ölkələrdə də istifadə olunmadığı üçün ixracatı azalmışdı. Ümumiyyətlə, Səfəvi dövlətinin xarici ticarəti məhdudlaşmış və bu səbəbdən gömrük gəlirləri də azalmışdı ki, nəticədə bütün bunlar dövlətin mədaxilinə ciddi ziyan verirdi.[74]

Digər tərəfdən Səfəvi dövlətinin zərbxanalarında qəlp sikkələr kəsilməsi və bu pulların külli miqdarda dövriyyəyə daxil olması, hindli tacirlərin müxtəlif yollarla yüksək əyarlı sikkələri Hindistana aparmaları ölkənin təkcə xarici iqtisadi əlaqələrini deyil, daxili ticarətini də zəiflədir, böhranı daha da dərinləşdirirdi.

III fəsil **«Sosial münasibətlər və idarəçilik sistemi»** adlanır. Bu fəsildə şəhər həyatı, sosial münasibətlər, idarəetmə orqanları və əsgəri təşkilat məsələlərindən bəhs olunur. XVII əsrin birinci yarısında Səfəvi dövlətinin istər şimal-qərb, istərsə də cənub-şərq sərhədlərində baş vermiş müharibələr ölkənin kənd təsərrüfatı ilə yanaşı, şəhərlərin sosial-iqtisadi həyatına da mənfi təsirlər göstərmişdir. Ancaq əvvəl qeyd edildiyi kimi, II Şah Abbasın (1642-1666) həyata keçirdiyi bərpa və quruculuq işləri sayəsində bir çox şəhərlər yenə də ticarət-sənətkarlıq mərkəzlərinə çevrilmiş, onların ictimai həyatlarında da ciddi dəyişikliklər baş vermişdir. Sansonun, Engelbert Kempferin əsərlərində və dövrün bir çox mənbələrində Səfəvi məmləkətinin şəhər əhalisinin məşğuliyyəti və ümumiyyətlə şəhər əhalisi barədə məlumatlar verilir. Ancaq ölkə və şəhər əhalisinin sosial tərkibi, sayı məsələsinə ötəri toxunulur. Onu da qeyd etmək lazımdır ki, əhalinin sayı və sosial tərkibi barədə xüsusi statistik material da yoxdur. XVII əsrin ortaları və ikinci yarısında Səfəvi dövlətində İsfahan, Kaşan, Təbriz, Şamaxı, Gəncə, Ərdəbil və s. ən böyük şəhərlər idilər. XVII əsrin I yarısında baş vermiş Osmanlı-Səfəvi savaşlarında ölkənin mərkəzində əlverişli təbii-coğrafi şəraitdə yerləşən İsfahan şəhəri dağıntıya məruz qalmamış, öz iqtisadi nüfuzunu ölkə miqyasında nəinki saxlamış, şəhərin ticarət və sənətkarlıq mərkəzi kimi əhəmiyyəti daha da artmışdı. Elə buna görə də XVII əsrin sonlarında Səfəvi dövlətində başlanmış iqtisadi böhranın bir çox şəhərlərlə müqayisədə İsfahana təsiri hələ ki, bir o qədər güclü deyildi. Bu illərdə İsfahanda uzun müddət yaşamış Engelbert

74 Sanson. Göstərilən əsəri s. 191

Kempferin məlumatları da deyilənləri təsdiq edir. Engelbert Kempferə görə I Şah Abbas dövründə İsfahan dövlətin mərkəzi olduqdan sonra şəhər sürətlə inkişaf etmiş və Asiyanın ən böyük şəhəri olmuşdu. Müəllif sözünə davam edərək göstərir ki, bu gün də, yəni XVII əsrin 80-ci illərində də müxtəlif səbəblərlə əlaqədar bura ölkənin hər tərəfindən adamlar gəlib yerləşir və şəhər getdikcə genişlənir.[75] Engelbert Kempferə görə XVII əsrin 80-ci illərində İsfahan əhalisi tərkibinə görə əsilzadə, tacir, sənətkar, əkinçilərdən ibarət olub, şəhərdə bir xəstəxana, yüzdən çox məscid və mədrəsə, çoxlu karvansara, hamam mövcud olmuşdu.[76] Kempferin bu məlumatları XVII əsrin 80-ci illərində İsfahanın ölkənin Şimal - Qərb şəhərləri ilə müqayisədə iqtisadi nüfuzunun güclü olmasını bildirsə də, bu dövrdə baş vermiş iqtisadi böhran İsfahana da öz təsirini göstərməyə bilməzdi.

Səfəvi dövlətində şəhər əhalisinin sosial tərkibi material qıtlığı ilə əlaqədar olaraq kifayət qədər öyrənilməmişdir. Belə ki, orta əsr müəllifləri əsərlərində əhalinin sosial tərkibinə lazımi əhəmiyyət verməmiş, habelə dövrün dövlət məmurları da bu istiqamətdə statistik qeydləri aparmamışdılar ki, bu da məsələnin həlli üçün böyük çətinlik törədir. Bununla belə, ilk mənbələrdə və tarixi ədəbiyyatda təsadüf etdiyimiz son dərəcə məhdud materiallar əsasında Səfəvi dövlətində şəhərlərin əhalisinin sosial tərkibini aşağıdakı kimi təqdim etmək olar:

1. Dörd təbəqədən ibarət olan ali zümrə: hərbi əyanlar, mülki bürokratiya, ali ruhanilər, iri və kiçik torpaq sahibləri.
2. Tacirlər: ticarətlə məşğul olan iri tacirlər, daxili ticarətlə məşğul olan orta və kiçik tacirlər.
3. Sənətkarlar–orta əsr şəhərlərinin başlıca istehsalçıları, eyni peşəyə malik çoxsaylı sənətkar ittifaqları.
4. Əkinçilər-şəhərətrafı torpaqları becərənlər və heyvandarlıqla məşğul olanlar.
5. Əhalinin digər təbəqəsi: günəmuzd fəhlələr, qulluqçular, qullar və hər cür müflis ünsürlər.[77]

S.Aşurbəyliyə görə şəhər əhalisi sosial-iqtisadi vəziyyətinə görə, 1) şəhərin dünyəvi feodal zadəganları, 2) ruhanilər, 3) tacirlər, 4) sənətkarlar, 5) şəhər əhalisinin digər təbəqələri-müflisləşmiş kəndlilər,

---

75 Engelbert Kempfer. Göstərilən əsəri, s.185
76 Yenə orada, s.191
77 Engelbert Kempfer. Göstərilən əsəri,s. s. 170-171

günəmuzd fəhlələr, qullardan ibarət[78] beş kateqoriyaya bölünmüşdür. Bizcə bu bölgü orta əsr Azərbaycan şəhərlərində sosial münasibətləri daha dolğun və tarixi reallığa uyğun əhatə edir.

Dövrün qaynaqlarında, xüsusilə Avropalı səyyahların gündəliklərində Səfəvi dövlətinin quruluşu haqqında maraqlı, həm də elmi əhəmiyyətə malik kifayət qədər məlumata təsadüf edilir. XVII əsrdə Səfəvilərin mükəmməl bir dövlət aparatı vardı. Dövlət aparatında baş vəzir şahdan sonra əsas dövlət məmuru idi. Sanson "Səyahətnamə"sində dövlətin mərkəzi maliyyə idarəsinin strukturu barədə ətraflı məlumat verərək baş vəzirin tabeçiliyi altında altı vəzirdən ibarət vəzarət divanının olduğunu göstərmişdir.[79]

E.Kempfer yazır ki, dövlətdə ən yüksək vəzifə sahibi Ali divan rəisi və ölkənin böyük şəxsiyyətləri arasında nüfuzlu olan şəxsiyyət baş vəzir idi. Baş vəzir eyni vaxtda əlahəzrətin naibi hesab olunurdu. Tutduğu yüksək vəzifəyə görə «Etimad-əd-dövlə» ləqəbi və həm də «vəzir-i əzəm» böyük vəzir ləqəbi almışdır.[80]

Səfəvilərin dövlət quruluşunun formasına uyğun olaraq ölkə, vilayət və mahallara bölünmüşdü. Dövrün yerli mənbələrində və o cümlədən, Sanson və Engelbert Kempferin əsərlərində Səfəvi dövlətinin inzibati-ərazi bölgüsü, inzibati-vahidlərdəki idarə orqanları, onların statusları haqqında kifayət qədər məlumat vardır. Sansonun yazdığına görə, XVII əsrin 70-80-ci illərində Səfəvi dövlətində valilər tərəfindən idarə edilən 10 nahiyə vardı ki, onlar Gürcüstan, Luristan, Həvize, Bəxtiyarı, Zeytun-Ərdəlan, Mazandaran, Çərkəz, Herat, Qəndəhar və Kirmandan ibarət idi. Bəzən valilikdən biri ləğv edilir və həmin valiliyə bəylərbəyi təyin edilirdi. Bu valilikdən başqa ölkədə 12 bəylərbəyilik də vardı ki, onları şah tərəfindən təyin edilən bəylərbəyi idarə edirdi.[81]

Səfəvilərin idarəçilik sistemi və dövlət quruluşu barədə qaynaqların məlumatlarını təhlil etdikdən sonra belə nəticəyə gəlirik ki, XVII əsrdə Səfəvilər dövlətində qızılbaşlar əvvəlki yerlərini qismən itirsələr də, baş vəzirdən əyalət bəylərbəyilərinə, sultanlara qədər heç biri müstəqil deyildi və dövlət aparatı elə qurulmuşdu ki, şah vəzifəli şəxsləri bir-birindən asılı hala salmış, birini digərinə nəzarətçi qoymuşdu. Ona görə də ən kiçik hadisədən belə şahın dərhal xəbəri olurdu. Vilayətlərə hakim

[78] Engelbert Kempfer Göstərilən əsəri, s. 252
[79] Sanson. Göstərilən əsəri, s.70
[80] Engelbert Kempfer. Göstərilən əsəri, s.22-23
[81] Sanson. Göstərilən əsəri, s.59-60

xan, sultan titulu, əmir əl-üməra, yaxud bəylərbəyi rütbəsi ilə təyin olunurdu.[82]

XVII əsrdə Səfəvilər dövlətində padşahın və vilayət məmurlarının nizami orduları olmuşdur. Onlar iqtisadi baxımdan lazımi səviyyədə təmin olunmuş və Azərbaycanın ərazi bütövlüyünü qorumaq üçün həmişə müsəlləh olmuşlar.

Əsərin **"Nəticə"** hissəsində müəllifin tədqiqatlarının yekunları və başlıca ümumiləşdirmələr öz əksini tapmışdır.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır**:


1. Səfəvilər dövlətində Azərbaycanın danışıq dili Evliya Çələbi «Səyahətnaməsi»ndə // Pedaqoji Universitetin Xəbərləri (humanitar elmlər seriyası). Bakı, 2003, №5, s.66-70
2. XVI yüzilliyin II yarısında Azərbaycan-Rusiya münasibətlərinin bəzi məsələlərinə dair // Pedaqoji Universitetin Xəbərləri (humanitar elmlər seriyası). Bakı, 2003, №5, s. 93-98
3. Səfəvi dövləti tarixinin bəzi məsələləri Engelbert Kempferin «Səyahətnaməsi»ndə // Tarix və onun problemləri. Bakı, 2004, №4, s.257-259
4. Engelbert Kempfer və onun Səfəvi dövlətinə səyahəti haqqında // Sumqayıt Dövlət Universiteti. Elmi Xəbərlər. Sosial və humanitar elmlər bölümü. Sumqayıt, 2005, №2, s.56-57
5. Azərbaycan XVII əsr Alman səyyahı E.Kempferin təsvirində // Tarix və onun problemləri. 2007, №3, s. 412-415
6. Azərbaycan şəhərlərinin iqtisadi inkişafı katolik Missioneri Sansonun təsvirində (XVII əsr) // Azərbaycan Dövlət Pedaqoji Universiteti., Xəbərlər (humanitar elmlər seriyası). Bakı, 2007, №4, s. 115-119
7. Avropa səyyahları XVII əsr Səfəvilər dövlətində ordu quruculuğu haqqında (E.Kempfer, Sanson)// Elmi Xəbərlər, Azərbaycan Dillər Universiteti, Bakı, 2010, №1, s. 280-285
8. Европейские путешественники о ремесленничестве в Азербайджане (Кемпфер, Сансон) // Актуальные проблемы гуманитарных и естественных наук. Москва, 2010, №3, с. 56-60
9. Некоторые вопросы политической истории и государственного устройства Азербайджанского государства Сефевидов в дневни-


[82] Bayramlı Z.H. Göstərilən əsəri, s. 136

ковых записях Энгельберта Кемпфера // Вестник серия историческая) Казахский Национальный Университет имени Аль-Фараби, Алмата, 2011, №2(61), с.85-88

10. Sanson və Engelbert Kempferin gündəliyində Səfəvi məmləkətinin kənd təsərrüfatının bəzi məsələləri. // Tarix və onun problemləri, Bakı, 2011, №3, s. 18-22
11. XVII əsrin 80-ci illərində Səfəvi dövlətinin xarici ticarəti (Sanson və Engelbert Kempferin gündəlikləri üzrə) // Tarix və onun problemləri. Bakı, 2011, №4, s. 15-19
12. XVII əsrin 80-ci illərində Səfəvi dövlətinin şəhərlərinin sosial struktur məsələləri.// Bakı Universitetinin Xəbərləri, (humanitar elmlər seriyası). Bakı, 2011, №4, s. 217-222
13. Səfəvi dövlətininn mərkəzi idarəetmə orqanları (Engelbert Kempfer və Sansonun gündəlikləri üzrə). // Bakı Universitetinin Xəbərləri, (humanitar elmlər seriyası). 2012, №3, s. 182-187
14. XVII yüzilliyin sonlarında Azərbaycanda siyasi iqtisadi tənəzzül. // Tarix və onun problemləri. Bakı, 2012, №3, s. 30-36

**Исмаилов Ш.Н.**

# «Социально-экономическая жизнь Сефевидского государства 80-90-е годы XVII столетия (на основе «Путешествий» Сансона и Энгельберта Кемпфера)

## РЕЗЮМЕ

Изучение социально-экономических проблем позднего периода Сефевидской империи, являющейся яркой страницей в истории государственности азербайджанского народа, имеет большое научное значение в отечественной историографии.

В настоящей диссертационной работе социально-экономическая история Сефевидского государства в 80-90-е годы XVII века исследована на основе дневников Энгельберта Кемпфера и Сансона.

Диссертация состоит из введения, трех глав и заключения.

Во Введении обоснована актуальность темы, определена научная новизна и ее значимость.

Первая глава называется «Аграрные отношения в Азербайджанском Сефевидском государстве». В этой главе, на основе сравнительного анализа материалов, полученных из произведений Энгельберта Кемпфера и Сансона, со сведениями из других источников данного периода изучены земельная и налоговая политика и сельское хозяйство государства.

Во второй главе, называемый «Общее состояние ремесла и торговли», изучены вопросы ремесла, проблемы внутренней и внешней торговли. В данной главе проанализировано влияние политического и экономического кризисов конца XVII века на торговлю и ремесло.

В третьей главе - «Социальные отношения и система управления» - рассматриваются вопросы, связанные с городской жизнью, социальными отношениями и органами управления.

В Заключении сделаны выводы и подведены итоги.

**Ismailov Sh.N.**

## "Social – economy life of Safavyd state in 80-90 years at XVII century (based on "Journey" after by Samson and Engelbert Kempfer).

## S U M M A R Y

Investigation of social- economy periods in Safavyd state it is a problem early periods and also it is brightly pages in history of Azerbaijan. Such problem as this period is very important meaning in patriotic historiography of Azerbaijan.

This dissertation social economy history of Safavyds state in a 80-90 years of XVII century based on diary by Engelbert Kempfer and Sanson.

This dissertation consists of preface, three chapter and conclusion. In preface there is supporting actuality topic, given a new science definition and relevance of this topic.

First chapter is dedicated to the – "Agrarian relation in Safavyd state". In this chapter based on comparison analyzes of resource receiving from Englebert and Sanson`s works. There are researched land and taxation policy and also agrarian husbandry state.

In the second chapter is dedicate to the "Common condition of craft and trade" there was research a question of craft, problems of inner and outer trades. Also given analyzes about influence by policy and economy crisis at the end of XVII century.

Third chapter is calling "Social system and governance", in this chapter there is discovering problems of social relation and body governance.

In conclusion there was make deduction and resumes.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ШАХИСМАЙЫЛ НАМАЗ оглы ИСМАИЛОВ**

# СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКАЯ ЖИЗНЬ СЕФЕВИДСКОГО ГОСУДАРСТВА 80-90-ЫЕ ГОДЫ XVII СТОЛЕТИЯ (НА ОСНОВЕ «ПУТЕШЕСТВИЯ» САНСОН И ЭНГЕЛЬБЕРТ КЕМПФЕРА)

Специальность:5502.01-Всеобщая история

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по истории

**Баку-2013**